

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 46 (23.208)

6 mart 2019-cu il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də ATƏT PA yanında İtaliya nümayəndə heyətinin sədri, İtaliya Deputatlar Palatasında Xarici Əlaqələr Komissiyasının sədr müavini Paolo Qrimoldini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan ilə İtaliya arasında siyasi, iqtisadi və digər sahələrdə çoxşaxəli əlaqələrin mövcud olduğunu qeyd edərək, yüksək səviyyədə həyata keçirilən səfərlərin önəmini vurğulayıb.

Görüşdə, həmçinin ölkələrimiz arasında mədəniyyət, turizm, idman və digər sahələrdə ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsinə dair məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabartinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Avropa Yenidənqurma və İnkişaf Bankının Azərbaycanla yeni sahələrdə əməkdaşlıqda maraqlı olduğu qeyd edilib və qeyri-neft sektorunun inkişafı, şəhərdaxili nəqliyyat, bərpaolunan enerji və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.



## S.İ.Həbibbəylinin Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri təyin edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Səhət İsa oğlu Həbibbəyli Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 5 mart 2019-cu il*

## Şahmat müəllimlərinə sertifikatlar təqdim olunub

***Martın 5-də Naxçıvan Şahmat Mərkəzində Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Şahmat Federasiyası tərəfindən sertifikasiya imtahanlarında uğurlu nəticə əldə edən müəllimlərə sertifikatların təqdimatı olmuşdur.***

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Seymur Talıbov demişdir ki, muxtar respublikada bütün sahələrlə yanaşı, şahmatın da inkişafı daim diqqət mərkəzindədir. Şəhər və rayonlarda şahmat məktəbləri tikilib istifadəyə verilib, orta məktəblərdə şahmat dərsləri tədris olunur. Şahmat Federasiyası Təhsil Nazirliyi ilə birgə orta məktəblərdə şahmatın yüksək səviyyədə tədris olunması üçün sertifikasiya imtahanları keçirmişdir.

Seymur Talıbov diqqətə çatdırmışdır ki, şahmatın inkişafı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən daim diqqətdə saxlanılır. Bunun nəticəsidir ki, Ali Məclis Sədrinin tapşırığına əsasən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya müəllimlərin nəzəri imtahanı ödənişsiz aparılmışdır. Bu da muxtar respublika rəhbərinin şahmatın inkişafına böyük önəm verdiyinin bariz nümunəsidir. Şahmat idman növü olmaqla yanaşı, həm də uşaqların zehni inkişafında mühüm rol oynayır. Ona görə də müəllimlər orta məktəblərdə uşaqlara şahmatın sirlərini daha dərindən öyrətməyə çalışmalı, maarifləndirmə işləri aparmalı və idmanın bu növünü təbliğ etməlidirlər. Federasiya sədri bu yolda şahmat müəllimlərinə uğurlar arzulamışdır.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov qeyd etmişdir ki, muxtar respublikada şahmat mərkəzi və məktəblərinin maddi-texniki bazası yaxşılaşdırılmış, bu məktəblər 67 müasir kompüter və 9 elektron lövhə, həmçinin şahmatla bağlı elektron tədris vəsaitləri ilə təchiz olunmuşdur. Eyni zamanda ümumtəhsil məktəblərində şahmatın tədrisi üçün siniflər ayrılmış, ümumilikdə, ümumtəhsil məktəblərinə 490 ayaqlı, 500 asma və 3910 stolüstü şahmat dəsti verilmişdir. Hazırda muxtar respublikanın ümumtəhsil məktəblərinin I-IX siniflərində dərsdənkənar məşğələlər hesabına 2923, şahmat məktəblərinin dərnək məşğələləri hesabına 2797 olmaqla, ümumilikdə, 5720 saat şahmat fənni tədris edilir. Ümumtəhsil məktəblərində şahmatın tədrisi ilə 445 müəllim məşğul olur.

Rəhman Məmmədov vurğulamışdır ki, təhsil müəssisələrində şahmatın tədrisinin yaxşılaşdırılması və müəllimlərin peşəkarlıq səviyyəsinin yoxlanılması məqsədilə Təhsil Nazirliyi və Şahmat Federasiyasının birgə təşkilatçılığı ilə sertifikasiya imtahanları keçirilmişdir. Sertifikasiya iki mərhələdə aparılmış, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən müəllimlərin nəzəri, Təhsil Nazirliyi və Şahmat Federasiyası tərəfindən isə təcrübi bilikləri yoxlanılmışdır. Müəllimlərdən 401-i imtahanı uğurla keçmiş, onlardan 25-i sertifikasiya imtahanlarında ən yüksək nəticə göstərmişdir.

Sonra Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Seymur Talıbov və təhsil naziri Rəhman Məmmədov Naxçıvan şəhəri üzrə 9, Şərur rayonu üzrə 5, Ordubad rayonu üzrə 4, Culfa rayonu üzrə 2, Kəngərli rayonu üzrə 2, Şahbuz rayonu üzrə 2 olmaqla, ümumilikdə, imtahanlarda yüksək nəticə göstərmiş 25 müəllimə sertifikatları təqdim etmişlər.







Həmin gün imtahandan keçən digər müəllimlərə də muxtar respublikanın rayon təhsil şöbələri və şahmat məktəbləri tərəfindən sertifikatlar verilmişdir.

Sonda sertifikasiya imtahanlarından uğurla keçən müəllimlərlə xatirə şəkli çəkilmişdir.

**“Şərq qapısı”**

## Muxtar respublikanın enerji təhlükəsizliyi təmin edilmişdir

***Enerji təchizatı hər bir ölkənin, cəmiyyətin sosial-iqtisadi inkişafına və tərəqqisinə təsir göstərən mühüm amillərdəndir. Bu sahənin inkişafı istiqamətində muxtar respublikada həyata keçirilən tədbirlər də yaxın dövrə deyil, həm də gələcək onilliklərdə dayanıqlı və keyfiyyətli enerji əldə olunmasına hesablanıb.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)”, “Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” və “Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” üzrə həyata keçirilən tədbirlər bütün sahələrlə yanaşı, energetika sektorunun inkişafına da geniş imkanlar yaradıb.

Muxtar respublikanın enerji təchizatını yaxşılaşdırmaq məqsədilə 2006-cı ildə Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasında dizel yanacağı ilə işləyən enerji turbinləri təbii qazla işləmə rejiminə keçirilmiş, ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası tikilib istismara verilmişdir.

Muxtar respublikanın əlverişli iqlim şəraiti və coğrafi mövqeyi ekoloji cəhətdən təmiz, alternativ və bərpaolunan enerji mənbələrindən istifadəyə geniş imkanlar açmış, Heydər Əliyev Su Anbarı üzərində 4,5 meqavat gücündə su elektrik stansiyası, Ordubad rayonunda Gilançay üzərində 22 meqavat gücündə Biləv Su Elektrik Stansiyası, Şərur rayonunda 20,5 meqavat gücündə “Arpaçay-1” və 1,4 meqavat gücündə “Arpaçay-2” Su Elektrik stansiyaları, Babək rayonunda 22 meqavat gücündə Naxçıvan Günəş Elektrik Stansiyası istifadəyə verilmişdir.

Əhalinin elektrik enerjisi ilə təchizatını daha da yaxşılaşdırmaq və iqtisadiyyatın davamlı enerji ilə təmin olunması istiqamətində təkcə 2014-2018-ci illəri əhatə edən üçüncü dövlət proqramının icrası ilə əlaqədar muxtar respublikada 3 elektrik stansiyası tikilmiş, 622,7 kilometr elektrik xətləri çəkilmiş və əsaslı təmir olunmuş, 784 transformator və 181 yarımstansiya quraşdırılmış və ya əsaslı təmir edilmişdir.

Əgər əvvəllər muxtar respublikada ümumi gücü 22 meqavat olan 1 elektrik enerjisi istehsal edən müəssisə fəaliyyət göstərirdisə, həyata keçirilən tədbirlərin nəticəsi olaraq 2018-ci ilin sonuna bu müəssisələrin sayı 8-ə, ümumi gücü 239,4 meqavata çatdırılmışdır. Yeni yaradılmış güclər daxili istehlakı tam ödəməklə yanaşı, muxtar respublikanı enerji idxalından enerji ixrac edən regiona çevirmişdir.

2018-ci ildə muxtar respublikada 425 milyon 941 min 325 kilovat-saat elektrik enerjisi istehsal olunmuşdur ki, bu da 2008-ci ildəki göstəricidən 96,1 faiz çoxdur. 2018-ci ildə muxtar respublikada elektrik enerjisinin 240 milyon 631 min 325 kilovat-saatı və ya 56,5 faizi istilik elektrik stansiyalarında, 151 milyon 380 min kilovat-saatı və ya 35,5 faizi su elektrik stansiyalarında, 33 milyon 930 min kilovat-saatı və ya 8 faizi isə Günəş Elektrik Stansiyasında istehsal edilmişdir. Alternativ və bərpaolunan elektrik stansiyalarında elektrik enerjisi istehsalının həcmi ümumi istehsalın 43,5 faizini təşkil etmişdir. 2018-ci ildə ölkə üzrə Günəş Elektrik stansiyalarında istehsal olunan elektrik enerjisinin 88,5 faizi muxtar respublikada istehsal olunmuşdur.

Muxtar respublikanın enerji sistemini daha da müasirləşdirmək və ucuz enerji istehsalı sahələrinin yaradılması məqsədilə 2019-cu ilin fevral ayında Kəngərli rayonunda 2 meqavat gücündə Günəş Elektrik Stansiyası istifadəyə verilmiş, hazırda 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyasının tikintisi davam etdirilir. Cari ilin yanvar-fevral aylarında muxtar respublikada 10 və 0,4 kilovoltluq yeni elektrik xətləri çəkilmiş, 1 transformator yarımstansiyası quraşdırılmışdır. Babək Rayon Elektrik Şəbəkəsinin inzibati binasının tikintisi, Naxçıvan şəhərində və Babək rayonunun Babək qəsəbəsində smartkarttipli elektrik sayğaclarının quraşdırılması davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

*2019-cu il muxtar respublikamız üçün əlamətdar hadisələrlə dolu bir tarixi zaman kəsiyidir. Qədim diyarımızın muxtariyyətinin 95, ustad sənətkar Mirzə Cəlilin 150, şair İmadəddin Nəsiminin 650 illiklərinin dövlət səviyyəsində qeyd edilməsi məhz 2019-cu ilin "bəxtinə düşüb". Elə digər əlamətdar hadisələri də göz önünə gətirsək, bu ili muxtar respublikada bayramlar ili adlandıra bilərik. Şərur rayonunun Kərimbəyli kənd sakinləri bu bayram sevincləri ilə yanaşı, həm də yaşayış məntəqəsində yeni obyektlərin istifadəyə verilməsi və bununla da Kərimbəylinin müasirliyə qovuşmasının sevincini yaşayırlar. Belə ki, fevral ayının 7-də Kərimbəylidə tam orta məktəb, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası öz qapılarını sakinlərin üzünə açıb. Ötən günlərin birində yolumuzu Şərur rayonunun Kərimbəyli kəndindən saldıq.*

*Yeniləşən kəndlərimiz*

# Müasirliyə qovuşan yaşayış məntəqəmiz: Kərimbəyli



Yolboyu müasirliyə qovuşmuş kəndlər bir-birini əvəz edir. Gördüyümüz mənzərələr insan qəlbində isti duyğular yaradır. Bu gün muxtar diyarımızın hansı guşəsinə üz tutsaq, belə təəssüratları yaşaya, sevinc hissləri keçirə bilərik. Ona görə ki, ötən dövr ərzində bu yaşayış məntəqələrində həyata keçirilən quruculuq işləri, yaşıllaşdırma tədbirləri insanların yaşam tərzini kökündən dəyişib, evlərə firavanlıq gətirib. Şərur rayonunun sərhədlərini bir-birindən ayırmaqda çətinlik çəkdiyimiz kəndləri də eləcə. Artıq Kərimbəyli də belə yaşayış məntəqələrindən birinə çevrilib.

Kəndə daxil oluruq. Budur, yeni tikililərdən birinin – kənd mərkəzinin qarşısındayıq. Kəndə müasir qəsəbə görkəmi verən bu və digər obyektlər muxtar respublikada bərqərar olmuş sabitliyin, inkişaf və tərəqqinin ifadəsidir. İnsana, onun layiq olduğu səviyyədə yaşamasına hədəflənmiş belə tədbirlər bu ünvanlara yolu düşənlərdə də xoş təəssüratlar yaradır, muxtariyyət, müasirliyin bəhrələri kimi ovqatımızı təzələyir. Bunun belə olduğunu bir qədər sonra görüşüb söhbət edəcəyimiz kənd sakinləri də təsdiqləyəcəklər.





Kənd mərkəzinin qarşısında sakinlərlə salamlaşırıq, onları yeni sosial obyektlərin istifadəyə verilməsi münasibətilə təbrik edirik, kənd adamlarının qayğıları ilə maraqlanırıq. Təqaüddə olan el ağsaqqalı Kərəm İsmayılov deyir:

– Muxtar respublika rəhbərinə dərin minnətdarlığımızı bildiririk. Kərimbəyli heç vaxt görmədiyi günlərinə qovuşub. Gündəlik xırda-para qayğılarımıza qalanda isə, nə deyim? Erkən yazdan əkin sahələrinə çıxan, məhsul bolluğu yaratmağa çalışan insanlar hərtərəfli qayğı ilə əhatə olunublar.

Müsahibim deyir ki, son illər muxtar respublikamızda bir ənənə formalaşıb. Hər il kompleks quruculuq tədbirləri çərçivəsində inşası başa çatdırılmış obyektlərin açılış mərasimləri qədim diyarımızın təbii gözəlliklərinə yeni gözəlliklər gətirir. İnsan əli ilə yaradılan bu gözəlliklərin sevinci hər il yurdumuzun on-on beş kəndində yaşanır.

Digər bir təqaüdçü İmran Hüseynov da söhbətə qoşulur:

– Bu binaların açılışında muxtar respublika rəhbəri kənd sakinlərini təbrik etdi, həmin obyektlərdə çalışanlara gələcək fəaliyyətlərində uğurlar arzulamaqla qurulanların, tikilənlərin qorunmasının vacibliyini vurğuladı.

Kərəm kişi söhbətə müdaxilə edir: – Bu gün sevincimin həddi-hüdudu yoxdur. Yaşımın bu vaxtında Kərimbəylinin belə çağlarını görmək mənə də qismət oldu. Elə bil ki, cavanlaşmışam. Bugünkü cavanlara isə sözüm odur ki, tikilənləri qorusunlar. Bu həcmdə quruculuq işi asan başa gəlməyib.

Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Rəfael İsmayılovla müasir iş şəraiti yaradılmış kənd mərkəzinə daxil oluruq. O bildirir ki, 2217 sakini, 541 təsərrüfatı olan Kərimbəyli Şərur rayonunun səfalı yaşayış məntəqələrindən biridir. O, kənddə həyata keçirilən kompleks quruculuq tədbirləri barədə həvəslə danışır: quruculuq tədbirlərindən biri kəndə gələn avtomobil yolunun yenidən qurulmasıdır. Kənd mərkəzində rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, arxiv, klub üçün otaqların və iclas zalının, binanın birinci mərtəbəsində həkim ambulatoriyasının ixtiyarımıza verilməsi bu təşkilatlarda çalışanların məsuliyyətini daha da artırıb. Mərkəzdə istifadəyə verilən rabitə evində poçt bölməsi yaradılıb, kommunal ödənişlərin qəbulu, dövri mətbuatın, gündəlik danışıq və internet kartlarının satışı təşkil olunub, internetdən istifadə imkanları yaradılıb.

Kənd sakini, təqaüdçü müəllim Şərabanı Musayeva ambulatoriyada yaradılan şəraitdən razılıqla danışır. Deyir ki, sakinlər arasında səhiyyə maarifi işi aparılması diqqət mərkəzində saxlanılır, yaşlı insanlara, körpələrə evlərində tibbi xidmət göstərilir. Kənd camaatı da onlara göstərilən xidməti dövlətimizin öz vətəndaşlarına qayğısı kimi dəyərləndirir.

Kərimbəylidə təhsilin inkişafına ciddi diqqət yetirilməsinin nəticəsidir ki, yaşayış məntəqəsində müasir tələblərə cavab verən məktəb binası müəllim və şagirdlərin ixtiyarına verilib. Məktəbin direktoru Zeynəb Həsənova deyir ki, istifadəmizə verilən, tədrisin keyfiyyətinin yüksəldilməsi üçün geniş imkanlar açan müasir məktəb binasında şagirdlər üçün hərtərəfli təhsil almağa şərait var. Yeni məktəb binasında yaradılanlar tədrisin daha yüksək səviyyədə təşkilinə hesablanıb. Muxtar respublikada təhsilin inkişafı üçün həyata keçirilən tədbirlər və təhsil işçilərinin sosial qayğılarının daim diqqətdə saxlanılması məsuliyyətimizi artırıb. Hazırda məktəbdə 140 şagird oxuyur. Ötən dərs ilində məktəbin 9 məzunu olub. Onların 6-sı göstərilən etimadı doğruldaraq ali və orta ixtisas məktəblərinin tələbəsi adını qazanıb.

Gələcək perspektiv nəzərə alınaraq 270 şagird üçün tikilmiş yeni məktəb binası üç mərtəbədən ibarətdir. Məktəbdə ikisi elektron lövhəli olmaqla, 18 sinif otağı, kimya-biologiya laboratoriyaları, hərbi kabinə, kompüter otağı, müəllimlər otağı, bufet və idman zalı vardır. Məktəblilər pulsuz dərsliklərlə təmin olunublar. Onlar zəngin fonda malik kitabxanadan istifadə etmək imkanı qazanıblar. Burada hazırlanmış "Naxçıvan Muxtar Respublikası – 95", "Cəlil Məmmədquluzadə – 150", "İmadəddin Nəsimi – 650" adlı guşələr zənginliyi ilə diqqəti çəkir. Tədris il ərzində həmin əlamətdar tarixlərlə bərabər tədbirlər keçirilməsi məqsədilə plan tərtib olunub.

Məktəbin pedaqoji kollektivi ilk günlərdən yeni təhsil ocağında işin səmərəli qurulması üçün əzmlə səy göstərir, dövlətçiliyimizə, müstəqilliyimizə sadiq olan vətənpərvər vətəndaşlar yetişdirmək üçün müasir təlim üsullarına üstünlük verir, məktəbdənkənar və sinifdənxaric məşğələlərin səmərəli təşkilinə çalışır. Məqsəd doğma Azərbaycanımızın, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanın ulu keçmişini, ümumilikdə, mədəniyyətimizi, ədəbiyyatımızı, milli-mənəvi dəyərlərimizi bugünkü məktəblilərə aşılamaq, onları dövlətçiliyə sədaqət, doğma yurd yerinə məhəbbət ruhunda formalaşdırmaqdır. Məktəbin həyətində büstü qoyulmuş şəhid Nüsrət İsmayılovun ömür yolunun şagirdlərə aşılanması da bu məqsədə xidmət edir.

Bu isə Kərimbəyli kəndində istifadəyə verilən yeni xidmət mərkəzidir. Binada bərbərxana və mağaza fəaliyyət göstərir. Ticarət və məişət xidmətlərinin təşkili sakinlərin rahatlığına şərait yaradıb. Mağazada zəruri ərzaq və sənaye mallarının satışı təmin olunub.

Xidmət mərkəzinin qarşısında kəndin ən yaşlı sakini ilə görüşürük. Hələ də gümrah görünən Xürrəm Həsənov da minnətdarlıq hisslərini dilə gətirir. Deyir ki, qədim diyarımızın bütün bölgələrində görülən bu işlər insanlara böyük qayğı göstərilməsinin ifadəsidir. Dünənki mağazamız hara, məktəbimiz hara, bu gün gördüklərimiz hara? – deyən el ağsaqqalından kənd haqqında bir qədər ətraflı danışmağı xahiş edirik.

– Kərimbəylililər öz kəndlərinə bağlı insanlardır. Sovet dövründə kənddə heç bir gözəçarpan quruculuq tədbiri aparılmamışdı. Bu gün ovaxtkı arzularımız həyata keçib. Sağ olsun muxtar respublika rəhbərini. Bu gün kənd adamına nə lazımdırsa, hamısı ilə təmin olunmuşuq.

Kərimbəylidə adıçəkilən obyektlərin açılışından sonra kənd sakinləri ilə görüşən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov deyib: ***"Kərimbəyli kəndində yaradılan şərait ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu sabitlik və inkişaf yolunun ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir. Sabitliyin və inkişafın bəhrələri ölkə həyatının bütün sahələrini əhatə edib. Yaradılan bu şərait də kənd sakinlərinin rahatlığına xidmət edir. Ona görə də sakinlər kəndin torpaqlarından səmərəli istifadə etməli, qurulanlar qorunub saxlanılmalıdır".***

*Kərimbəylinin doğma yurd yerlərinə qəlbən bağlı olan sakinləri muxtar respublika rəhbərinin bu qiymətli tövsiyələrini özlərinə həyat amalı kimi qəbul ediblər.*

**Muxtar MƏMMƏDOV**

---

*Muxtar respublikamızda iqtisadi inkişafa mühüm töhfə verən ailə təsərrüfatlarının inkişafı istiqamətində ardıcıl tədbirlər görülür. Hazırda muxtar respublikamızda heyvandarlıq, quşçuluq, arıçılıq, bağçılıq və əkinçilik sahələri üzrə 800-dən çox ailə təsərrüfatı fəaliyyət göstərir. 2019-cu il muxtar respublikamızda "Ailə təsərrüfatları ili" elan edilib.*

*"Ailə təsərrüfatları ili" – 2019*

# Dövlət dəstəyindən bəhrələnən ailə təsərrüfatlarının inkişafında qadınlarımızın da özünəməxsus rolu vardır

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı" 2019-cu il 18 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş Tədbirlər Planına əsasən diyarımızda ailə təsərrüfatları ilində bu təsərrüfatların sahələr üzrə ixtisaslaşması və yenilərinin yaradılması dəstəklənir, onların fəaliyyətlərinin stimullaşdırılmasına dövlət maliyyə dəstəyi göstərilir. Ailə təsərrüfatlarının texnika ilə təminatı məhsul istehsalında mühüm rol oynayır. Naxçıvanda yüksəkkeyfiyyətli yerli məhsulların həcm və çeşidinin artması muxtar respublikanın istehsal və ixrac imkanlarını daha da genişləndirir. Bölgələrdəki ailə təsərrüfatları da yaradılmış şəraitdən səmərəli istifadə etməklə bu sahədə fəaliyyətlərini genişləndirirlər. Dövlət dəstəyindən bəhrələnən ailə təsərrüfatlarının inkişafında qadınlarımızın da özünəməxsus rolu vardır.



Naxçıvanda meyvəqurutma sahəsində də ailə təsərrüfatlarının formalaşması üçün əlverişli şərait mövcuddur. Zəngin təbiətə, təmiz havaya və suya malik muxtar respublikamızda yerli meyvələrin qurudulması, onlardan müxtəlif mürəbbə və şirələrin hazırlanması ənənəsi bu gün də yaşadılır. Ona görə də ailə təsərrüfatlarında meyvə və tərəvəzlərin qurudularaq paketlənməsi işinin təşkilinə köməklik göstərilməsi, muxtar respublika ərazisində yetişən yabanı meyvə və giləmeyvələrdən mürəbbə və şirələrin hazırlanması və satışının təşkil edilməsi diqqət mərkəzində saxlanılır.

Bu gün muxtar respublikamızda torpağın dilini bilən kifayət qədər təcrübəli təsərrüfatçılardan biri də Kəngərli rayonunun Yeni Kərki kəndində fəaliyyət göstərən gənc sahibkar Hafizə İsmayılbəylidir. Onun dediklərindən: – Muxtar respublikamızda ailə təsərrüfatlarının inkişafı istiqamətində sistemli tədbirlər həyata keçirilir, ailə biznesinin qurulması diqqətdə saxlanılır. Bu gün ailə təsərrüfatı məhsulları istehsalı ilə məşğul olmaq istəyən hər bir şəxs üçün geniş imkanlar yaradılıb. Həmçinin təsərrüfat sahiblərinin istehsal etdikləri məhsulların satışını təşkil etmək məqsədilə yarmarkalar keçirilir, festivallar təşkil olunur, böyük marketlərin köməyindən istifadə edilir. Mən də yaradılan imkanlardan səmərəli istifadə edərək belə tədbirlərdə yaxından iştirak edirəm. 2017-ci ildə keçirilən "Ailə təsərrüfatı məhsulları" festivalında "Ən yaxşı məhsul istehsalçısı" müsabiqəsi üzrə ikinci dərəcəli diploma layiq görülmüşəm. Eyni zamanda sahibkarlara göstərilən dövlət qayğısının bir nümunəsi kimi məhsul istehsalını artırmaq məqsədilə mənə 10 min manat kredit verilib. Əsas məqsədimiz ev şəraitində istehsal olunan konservləşdirilmiş meyvə-tərəvəz məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsidir.

Ailə təsərrüfatımızda, əsasən, yabanı meyvə və giləmeyvə məhsullarının, bitkilərin toplanması, emalı, qablaşdırılması və satışını həyata keçirməklə məşğul oluruq. Çalışacağıq ki, istehsal sahəsini genişləndirək. Hazırda zirinc, gilənar, gilas, xar tut, tut, həmərsin, yemişan, zoğal, qarağat, heyva, ərik, hülü, alça, göycə, qarışıq meyvə daxil olmaqla, 16 çeşiddə kompot, eyni zamanda bu meyvələrdən 20 çeşiddə mürəbbə, cem, həmərsin çiçəyi gülqəndi, nabat, müxtəlif tort və şirniyyatlar da hazırlayırıq. Sahibkar deyir ki, ailə təsərrüfatı məhsulu etiketi ilə satışa çıxarılan bu məhsullara böyük tələbat vardır. Keyfiyyət amili bizim üçün əsas şərtdir. İnanıram ki, gələcəkdə də ailə təsərrüfatımızda hazırladığımız məhsullar böyük alıcı rəğbəti qazanacaq.

Bu işə dövlətin göstərdiyi diqqət və qayğı, aparılan düzgün maarifləndirmə işi, qarşıya qoyulan vəzifələrin icrası onu göstərir ki, gələcəkdə ailə təsərrüfatlarında istehsal olunan məhsulların ölkə və xarici bazarlara çıxış imkanları xeyli artacaq, ölkə iqtisadiyyatının inkişafı sahəsində yeni imkanlar açılacaqdır.

**Güntac ŞAHMƏMMƏDLİ**

## Qədim əlyazma və kitabların təqdimatı olub



*Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən qədim tarixə malik 21 əlyazma və kitab AMEA Naxçıvan Bölməsinin Əlyazmalar Fonduna hədiyyə olunub. Qeyd edək ki, qədim əlyazma və kitablar Nehrəm kənd sakini, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Akif Hacıyev tərəfindən təqdim edilib.*

Bu münasibətlə keçirilən tədbiri giriş sözü ilə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açaraq deyib ki, bölmə elmi tədqiqatlarla yanaşı, maddi mədəniyyət nümunələrinin aşkarlanması ilə də məşğul olur. 2005-ci ildə yaradılan Əlyazmalar Fondunda bu gün 400-dən çox qədim əlyazma və kitab toplanıb. Bu əlyazmalar Azərbaycan, ərəb, türk, fars və başqa dillərdə olmaqla, ədəbiyyat, tarix, coğrafiya, riyaziyyat, hüquq və digər sahələrə aiddir.

Akademik qeyd edib ki, əlyazma və kitablar yüzilliklərboyu İslam coğrafiyasının müxtəlif ölkələrinə yayılmış və əldən-ələ keçmişdir. Bu gün təqdim olunan kitablar XVIII əsrin sonu və XX əsrin əvvəllərinə aid olan dövrü əhatə edir. Həmin kitablar arasında dərslik, tanınmış insanların həyatı ilə bağlı kitablar, şairlərin əsərləri mühüm yer tutur. Bunlardan 2-si əlyazma, 19-u isə çap kitablarıdır. Təqdim olunan kitablar Əlyazmalar Fondunda tədqiq və bərpa ediləcəkdir. İsmayıl Hacıyev qədim əlyazma və kitabları toplayıb Əlyazmalar Fonduna təqdim edənlərə minnətdarlığını bildirib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova çıxış edərək bildirib ki, bu gün nazirliyin tabeliyində 30 muzey və muzeytipli müəssisə fəaliyyət göstərir. Muzey fondlarının zənginləşdirilməsi, onların yeni eksponatlarla təmin olunması daim diqqət mərkəzində saxlanılır. Bu prosesdə muzey əməkdaşları və muxtar respublika vətəndaşları yaxından iştirak edirlər. Ötən il muxtar respublika muzeylərinə 1564, bu ilin iki ayı ərzində isə 301 eksponat daxil olub. İki eksponat təqdimatı keçirilib. Təqdimatlarda xalqımızın tarixini özündə yaşadan maddi mədəniyyət nümunələrini muzeylərə könüllü şəkildə təqdim edən vətəndaşlar yaxından iştirak ediblər. Sevindirici haldır ki, bu aksiyaya artıq yetişməkdə olan gənc nəsil – məktəblilər də qoşulub. Bu ilin yanvar ayında Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyində eksponat təqdimatında Muğanlı kənd tam orta məktəbinin müəllim və şagirdlərinin iştirakı da bunu göstərir.

Nazir qeyd edib ki, AMEA Naxçıvan Bölməsinin Əlyazmalar Fonduna da Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən qədim əlyazma və kitabların təqdimatı ənənə halını alıb və bu, keçirilən üçüncü təqdimatdır. Bu gün Əlyazmalar Fonduna Mədəniyyət Nazirliyi tərəfindən 21 qədim əlyazma və kitab hədiyyə edilir. Natəvan Qədimova Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi adından kitabları təqdim edən vətəndaşlara, o cümlədən Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Akif Hacıyevə təşəkkürünü bildirib.

Nazir çıxışının sonunda mədəniyyətimizə, tariximizə göstərdiyi böyük diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə bu sahədə çalışan əməkdaşlar adından dərin minnətdarlığını bildirib.

AMEA Naxçıvan Bölməsinin Əlyazmalar Fondunun direktoru, filologiya üzrə elmlər doktoru Fərman Xəlilov təqdim olunan kitablar haqqında ətraflı məlumat verərək qeyd edib ki, bu kitablar arasında Məhəmməd Rəfiyəddinin "Əbvabül-cinan", "Xabnamə (müəllifsiz)", Sərraf Təbrizinin "Məcmuə", Hafizin "Qəzəllər", Mirzə Mehdi xanın "İnşa" və başqa əlyazma və kitabları vardır. Alim hədiyyə olunan kitablara görə minnətdarlıq edərək deyib ki, tarixi kitablar xalqın milli sərvətidir. Onları qoruyub gələcək nəsillərə çatdırmaq, tədqiq etmək hər birimizin vətəndaşlıq borcuna çevrilib.

Kitabları muzeyə təqdim edən Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Akif Hacıyev çıxış edərək muxtar respublikamızda mədəniyyətə və elmə göstərilən diqqət və qayğıdan danışıb. Bildirib ki, mədəniyyət sahəsində çalışan insanlar bundan sonra da maddi və mənəvi mədəniyyət nümunələrinin aşkara çıxarılması işinə öz töhfələrini verməlidirlər. Çünki maddi mədəniyyət nümunələrinin qorunması xalqımızın tarixinin və keçmişinin gələcəyə çatdırılması deməkdir.

Sonda AMEA Naxçıvan Bölməsinə hədiyyə edilən kitablara baxış olub.

**Əli RZAYEV**

## Ali təhsil ocağında konfrans



Naxçıvan Müəllimlər İnstitutunda "Ümumtəhsil məktəblərinin ibtidai siniflərində tədrisin təşkili və səmərəliliyinin artırılması yolları" mövzusunda keçirilən konfransı giriş sözü ilə institutun rektoru, tarix üzrə fəlsəfə doktoru, dosent Elbrus İsayev açaraq qeyd edib ki, dövlətimiz tərəfindən diqqət və qayğı ilə əhatə olunmuş Naxçıvan Müəllimlər İnstitutu bakalavr, magistr səviyyələrində kadr hazırlığı ilə yanaşı, muxtar respublikada təkmilləşdirmə və ixtisasartırma sahəsində də təcrübəyə malikdir. Hazırda müəllimlərin təkmilləşdirilməsi üçün institutda hər cür şərait mövcuddur. Əməkdaşlar da öz üzərlərinə düşən işlərin öhdəsindən gəlməyə çalışırlar.

Rektor bildirib ki, müasir dövrdə təhsilin inkişafında ibtidai təhsilin və sinif müəlliminin rolu əvəzolunmazdır.

Sonra 30 saatlıq ixtisasartırma kursunda iştirak edəcək ibtidai sinif müəllimləri üçün konfrans öz işinə başlayıb.

Konfransda Naxçıvan Müəllimlər İnstitutunun prorektoru, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Azad Novruzov "İbtidai sinif müəlliminin peşə hazırlığına verilən müasir tələblər", institutun kabinet müdiri Ruhəngiz Allahverdiyeva isə "İbtidai təhsil üzrə təlim nəticələri və problemlərin həlli yolları" mövzularında çıxış ediblər.

Sonda kursda iştirak edəcək müəllimlər anket sorğusu ilə ilk məşğələyə başlayıblar.

**Pərviz HACILI**

## Elmi-praktik seminar

***Martın 5-də Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında uşaqlara göstərilən ftiziatrik və fizioterapevtik xidmətə dair elmi-praktik seminar keçirilib.***



Tədbiri xəstəxananın baş həkimi Rəhim Rəhimov açaraq bildirib ki, uşaqlara tibbi yardım göstərən tibb müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması, onların müasir tibbi texnika və ləvazimatlarla təchiz edilməsi, yeni tibbi texnologiyaların tətbiqi, tibbi kadrların peşə səviyyəsinin artırılması və digər tədbirlər uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətinin artırılmasına imkan vermişdir. Uşaqlar arasında xəstəliklərin vaxtında aşkar edilməsi məqsədilə icbari tibbi müayinələrin aparılmasının, aşkar edilmiş xəstə uşaqların dispanserizasiyaya cəlb edilməsinin və müalicə-sağlamlaşdırıcı tədbirlərin həyata keçirilməsinin də müstəsna əhəmiyyəti vardır.

Diqqətə çatdırılıb ki, hazırda əhalinin, xüsusən məktəbyaşlı uşaqların sağlamlığının qorunmasına, onların müayinə və müalicəsinə, dispanserizasiyasının təşkilinə xüsusi diqqət yetirilir.

Sonra xəstəxananın həkimlərindən Sevinc Bağırova və Aidə Şahverdiyeva çıxış ediblər.

Məruzələr videosüjet, diaqram, cədvəl və slaydlarla müşayiət olunub, dinləyiciləri maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Etnoqrafiyamız*

## Dəridən hazırlanan qədim məişət əşyaları

### *Eymə, tuluq, dağarcıq, motal, çarıq min illər boyu məişətimizdə geniş yer tutub*

***Min illər boyu insanlar ev heyvanlarının ət və südü ilə yanaşı, onların dərisindən də məişətdə istifadə etmişlər. Bunun üçün heyvanın dərisini xüsusi üsulla soyar, lazım gəldikdə aşılayar və müxtəlif məişət əşyaları hazırlayardılar. Onların bəziləri haqqında oxucularımıza da məlumat vermək istərdik.***

***Eymə.*** Düzəldilməsi üçün bir çox şərtlərə əməl edilməli idi. Eymə



erkək heyvanların, övəc, sibir (Boyəhməd kəndində, əsasən, sarı və qara sibir dərisi seçərdilər) dərisindən düzəldilərdi. Eymə üçün həm də "qızıl heyvan"ın dərisindən istifadə edilərdi (Yaşlı adamlar Naxçıvanın aborogen qoyun sortu olan balbasa "qızıl heyvan" da deyərdilər). Eymə üçün istifadə ediləcək dəri bütöv soyulardı. Dərini heyvanın qarın nahiyəsinin aşağı hissəsindən açar, corab kimi çevirərək bütöv çıxarardılar. Soyan zaman çalışardılar ki, dəri kəsilib zay olmasın, ona görə də dərinin çox hissəsini yumruq və barmaqla soyardılar. Soyulmuş dərini isti-isti büküb 25-30 dərəcədə saxlayar, vaxtaşırı tükünün yolunub, yolunmamasını yoxlayardılar. Bu yolla dərinin tükü asanlıqla yoluna bildikdən sonra arpa unundan horra hazırlayardılar. Daha sonra duz və zəy əlavə edərdilər. Horrada saxlanılan dərini ovub yumşaldar, ılıq suda yuyub təmizləyər və qurudardılar. Bəzi bölgələrdə eyməni qurutmazdan əvvəl bir müddət həmərsin, bəzi bölgələrdə isə palıd ağacının suyunda saxlayardılar. Bu cür aşılanmış dəri "pilə" (ipək kimi yumşaq) olardı. Dərini soyan zaman həmin heyvanın qollarını dibdən kəsərdilər. Aşılanmış dərinin qollarının yerini və qarın nahiyəsindən aşağısını bərk iplə (kirişlə) sırıyıb tikərdilər. Boğaz hissəsinə halqa məftil, olmadıqda şüy çubuq qoyub tikərdilər ki, ağız kimi istifadə etmək asan olsun.

Eymədən qatıq saxlamaq üçün istifadə edilərdi. Adətən, ailələrdə hər gün istifadə edilən qatığın artığını eyməyə tökərdilər. Əvvəllər soyuducu olmadığı üçün qatığı bir gündən artıq saxlamaq mümkün deyildi. Eymədəki qatığa duz da atılardı. Eyməni sal daşın, taxtadan hazırlanmış döşəmənin üzərinə qoyardılar ki, suyu süzsün.

Eymənin üzəri vaxtaşırı yuyulub təmizlənər, sonra isə duzlanardı. Əks halda həşəratlar eymənin üzərinə qurd salardı. Ümumiyyətlə, eyməni təmiz saxlamaq heç də asan iş deyildi. Təmizliyə əməl olunmadıqda, eymədəki şor-kərə yeməli olmazdı. Eyməyə töküb saxlanan qatığa "qara qatıq" deyərdilər. Qatıq qalıb "dəyməli" idi ki, yağı asan ayrılsın. Eymədəki qatığı nehrəyə tökər, üstünə bir qədər ılıq su əlavə edib qarışdırardılar. Həmin qarışığı nehrədə çalxaladıqca kərə ilə ayran ayrılmağa başlardı. Böyük mollanəsrəddinçi satirik şair Mirzə Ələkbər Sabir də şeirlərindən birində bunu belə təsvir edir:

*Çalxalandıqca, bulandıqca zaman nehrə kimi,*
*Yağı yağ üstə çıxır, ayranı ayranlıq olur!*

Nehrədə çalxanan qatığın yağı yaxşı ayrılmayanda üstünə mümkün qədər soyuq su tökərdilər. Çalxanmış qarışığı geniş qaba boşaldar, üzərindəki yağı əl ilə bir yerə toplayardılar. Alınmış ayranı içər, çürüdüb şor düzəldər, yaxud da qurut hazırlamaq üçün istifadə edərdilər. Adətən, su qatılmış qatığa ayran deyilsə də, əslində, bu cür hazırlanan içki ayran yox, atlamadır. Qatıq çalxamaq üçün istifadə olunan nehrələr isə müxtəlif olurdu: ağac və ya asma nehrələr, küpətipli nehrələr və tuluq nehrələr.

Onu da qeyd edək ki, Babək rayonunun Sirab kəndində Eneolit dövrünə aid Şorsu təpəsi abidəsində bir neçə yerdə eymələri saxlamaq üçün keramika parçalarından düzülərək hazırlanmış yerlərə rast gəlinir. Görünür ki, insanlar eymədən hələ Eneolit dövründə istifadə ediblər.

***Tuluq.*** Onun da hazırlanması



eymə kimidir. Sadəcə, tuluq hazırlamaq üçün soyulan dərilərdə heyvanın qolları dibdən yox, dirsəkdən kəsilərdi ki, daşımaq asan olsun. Tuluq eyməyə nisbətən kiçik olurdu. Əsasən, soyuq içkiləri saxlamaq, daşımaq üçün istifadə edilərdi. Su, şərab, süd, ayran, bəkməz və sairəni də tuluqla daşıyardılar. Tuluqdan həm də nehrə kimi istifadə edilərdi. Tuluğu asan daşımaq, asıb nehrə kimi çalxamaq üçün tuluq ağacından istifadə edilərdi.

***Dağar.*** Qaramal dərisindən tikilmiş torbadır. Bəzən döyüşçülər, yol gedənlər mal dərisindən tikilmiş darboğazlı torbada su daşıyardılar.

***Dağarcıq.*** Adətən, qoyun, keçi dərisindən hazırlanırdı. Eymədən fərqli olaraq dağarcığın dərisi aşılanmırdı. Quru məhsulların – düyü, yarma, əriştə, noxud ləpəsi (Naxçıvan dialektində buna "mügəşşər" də deyirlər) saxlanılardı.

***Dol.*** Mal dərisindən tikilən bu cür tuluqla quyulardan su, keçmiş zamanlarda neft çıxarmaq üçün istifadə edilərdi. Kankanlar da kəhriz qazılması, təmizlənməsi zamanı doldan istifadə edərdilər. Dolu quyudan dartıb çıxaran çarxa isə "dolab" deyilərdi.

***Çarıq.*** 1950-ci illərə qədər geniş istifadə edilən, aşılanmış göndən hazırlanan ayaqqabı növü idi. Aşılanmış mal dərisi çarıq tikiləcək ölçüdə doğranardı. Həmin dəri ayağın ölçüsünə uyğun tərlik formasında kəsilərdi. Tərliyin kənarında dairəvi olaraq 4-5 santimetr aralı deşiklər açılardı. Göndən 3-4 millimetr enində "köşə" (uzun bağ) kəsilərdi. Tərliyin üzərində açılmış deşiklərin birindən köşənin bir ucu keçirilərdi. Sonra deşiklərdən növbə ilə köşənin birini o birinin üzərindən aşırmaqla keçirilərdi. Sonda köşələrin ucu düyünlənib artığı kəsilərdi. Köşə tərliyin kənarlarını yığıb ayaqqabı formasına salardı. Ucdan başlayaraq pəncənin üzərində ipdən xüsusi toxunmuş çarıqbağı – qaytan salınardı. Çarığı geyib-çıxaran zaman qaytanı bərkidib-boşaldardılar. Çarıq, adətən, patava (dolaq) və ya yundan toxunmuş corabla geyilərdi.

***Motal.*** Dəridən hazırlanan məişət əşyalarından biri də motaldır. Bunun üçün qoyun dərisi bütöv soyulur, tükü yolunmadan aşılanır. Dərinin



tüklü üzü içəri salınır. Ovulmuş pendir motalın içərisinə yığılıb duzlanır. Sərin yerə qoyulur və ya yerə basdırılır, motalda o qədər saxlanılır ki, pendir dəysin (yetişsin).

Müasir dövrdə ərzaq istehsalı və azuqənin uzun müddət saxlanıla bilməsi üçün kəndlərimizdə hər cür şərait var, kənd sakinlərinin hamısı müasir məişət texnologiyalarından istifadə imkanlarına malikdir. Bu şərait, istehsal olunan yeni qabqacaq zamanla qədim məişət əşyalarını sıradan çıxarıb. Buna baxmayaraq, həmin əşyalar xalqımızın etnoqrafiyasından, yaşayış tərzindən, qədim məişətindən xəbər verir. Onların muzeylərimizdə nümayiş olunması, tanıdılması tariximizin, etnoqrafiyamızın təbliği baxımından xüsusi əhəmiyyətə malikdir.

**Zaleh NOVRUZOV**

***İdman sağlamlığı qorumaq, fiziki, mənəvi cəhətdən güclü olmaq üçün əsas vasitələrdən biridir. Buna görə də muxtar respublikamızda qızların da idmana cəlbinə xüsusi diqqət yetirilir. Belə ki, müxtəlif idman federasiyaları üzrə qızlardan ibarət klublar yaradılıb, onların idman obyektlərindən istifadəsi təmin olunub. Muxtar respublikanın bütün bölgələrində idmanın bədii gimnastika, həndbol, stolüstü tennis, karate-do, taekvando, basketbol, voleybol, yüngül atletika, şahmat, trenajor və üzgüçülük idman növləri üzrə qız bölmələri fəaliyyət göstərir. Hazırda muxtar respublikamızda 7590 qadın idmanın müxtəlif növləri ilə məşğul olur. Onlar arasında gənc idmançılar üstünlük təşkil edirlər.***

# Muxtar respublikamızda qızların idmana cəlbinə xüsusi diqqət yetirilir

## *Onlar idmanın müxtəlif sahələrində böyük uğurlar qazanırlar*

Həmin idmançılardan biri 2008-ci il təvəllüdlü **Ayan Məmmədova**dır. Ayan idmanın karate-do növü ilə məşğul olur. Azərbaycan karateçisi, 5 dəfə dünya, 10 dəfə Avropa çempionu olan Rafael Ağayevin uğurlarını televiziyadan seyr etmək Ayanın bu idman növünə marağını daha da artırıb. 9 yaşından etibarən karate ilə ciddi məşğul olmağa başlayan idmançı 2017-ci ildən Naxçıvan Muxtar Respublika Stadionuna mütəmadi olaraq məşqlərə gedir. Məşqçi-müəllimi Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının sədr müavini, IV dan qara kəmər sahibi Nəriman Quliyevdir. Ayan son iki ildə çoxlu uğur əldə edib. Ötən il ulu öndər Heydər Əliyevin 95-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev kuboku" uğrunda karate-do idman növü üzrə Naxçıvan Muxtar Respublikası açıq çempionatında 10-11 yaş qrupunda qalib adını qazanıb, Yeni Azərbaycan Partiyasının yaradılmasının 26-cı ildönümü münasibətilə qızlardan ibarət Naxçıvan şəhər, Ordubad və Şərur rayon komandaları arasında karate-do üzrə yoldaşlıq görüşündə I yerə çıxaraq diplom və medallarla təltif edilib. 2018-ci ildə Azərbaycan Milli Karate Federasiyası və "Arpaçay" klubunun təşkilatçılığı ilə 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş beynəlxalq turnirdə də mükafata layiq görülüb. Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının təşkil etdiyi imtahanda bacarıq göstərərək VI yaşıl kyu dan kəməri alıb. 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə muxtar respublikanın ictimai həyatında və yaradıcılıq sahəsində fərqlənən istedadlı yeniyetmə və gənclərin mükafatlandırılması mərasimində "İlin gənc idmançısı" nominasiyası üzrə təltif edilib.



Atası Zaur Məmmədov deyir ki, bu gün muxtar respublikamızda idmanın inkişafına çox böyük diqqət və qayğı göstərilir. Biz də bundan ruhlanaraq həmişə istəmişik ki, övladlarımız idmanla məşğul olsunlar. Hazırda iki qızım da karate ilə məşğuldur. Bu idman növü həm fiziki sağlamlıq, həm də özünümüdafiə üçün çox əlverişlidir. Valideyn kimi həmişə Ayana dəstək olmuşuq. Bundan sonra da getdiyi yolda onun uğurlar qazanaraq bayrağımızı yüksəklərə qaldıracağına inanırıq.

Digər idmançımız yüngül atletikanın qaçış növü ilə məşğul olan Ordubad rayon Üstüpü kənd sakini **Xatun Oruclu**dur. O, kənd tam orta məktəbinin XI sinif şagirdidir. Məktəbin fiziki tərbiyə fənnini tədris edən Ələfsər Əliyev həm də onun məşqçi-müəllimidir. O deyir ki, Xatun çox istedadlıdır, məşqlərə məsuliyyətlə yanaşır və gələcəyin peşəkar idmançısı olmaq yolunda səylə çalışır. Bu bir neçə ildə gənc idmançı çoxlu uğurlar qazanıb. 2011-ci ildə, hələ V sinifdə oxuyarkən məktəbdə keçirilən ümumi atletika yarışında 400 metr məsafəyə qaçışda I yeri tutub. 2016-cı ildə Naxçıvan Muxtar Respublika Stadionunda 1999-2001-ci illər təvəllüdlü məktəblilər arasında yüngül atletika üzrə muxtar respublika birinciliyində 300 metr məsafəyə qaçışda qalib olub. Ötən il Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasının yetirməsi kimi Bakı şəhərində keçirilən Azərbaycan birinciliyində 1500 metr məsafədə finiş xəttinə hamıdan öncə çatıb, həmin il Naxçıvan Muxtar Respublika spartakiadasında 400 metr məsafəyə qaçışda I yerə çıxıb. "Naxçıvan"-"Şahbuz" komandaları arasında kross qaçışı üzrə yoldaşlıq görüşündə Xatun Oruclu qalib adını qazanıb. Ötən il Azərbaycan yığma komandasının üzvlüyünə namizəd qəbul edilib. Ən böyük arzusu beynəlxalq yarışlarda iştirak etməkdir.



Sədərək rayon sakini **Gülayə Cəfərova** da yüngül atletikanın qaçış növü ilə məşğuldur. Onda bu idman növünə marağı məşqçi-müəllimi Şamil Hüseynov yaradıb. İlk dəfə Naxçıvan şəhərində keçirilən 5 mart – Bədən Tərbiyəsi və İdman Gününə həsr olunmuş yüngül atletika üzrə Naxçıvan Muxtar Respublika çempionatına qatılıb və II yeri tutub. Gərgin məşqlər, şəxsi iradə və əzmkarlığı nəticəsində Bakı şəhərində yüngül atletika üzrə keçirilən Azərbaycan çempionatında 1500-3000 metr məsafədə bütün rəqiblərini üstələyərək I yerə çıxıb. Duzdağ Fizioterapiya Mərkəzi yolunda ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında keçirilən ənənəvi kross qaçışında və Bakı şəhərində təşkil edilən Azərbaycan birinciliyində I yeri tutub. 2017-ci ildə ali və orta ixtisas təhsili müəssisələrinin oğlan və qız atletləri arasında "Heydər Əliyev kuboku" uğrunda kross qaçışı üzrə muxtar respublika turnirində hamını qabaqlayaraq qalib adını qazanıb.




Gülayə hazırda Naxçıvan Dövlət Universitetinin Bədən tərbiyəsi və idman ixtisası üzrə II kurs tələbəsidir və Naxçıvan şəhərində keçirilən qaçış yarışlarına təhsil aldığı ali məktəbin komandasının tərkibində çıxır. O, voleybola da marağının olduğunu, bu idman növü üzrə də tələbələr arasında keçirilən yarışlarda fəal iştirak etdiyini deyir. Əsas məqsədi beynəlxalq yarışlarda iştirak etməkdir. Ötən il Gülayə Cəfərova "İlin ən yaxşı gənc idmançısı", məşqçisi Şamil Hüseynov isə "İlin ən yaxşı gənc məşqçisi" adlarına layiq görülüblər.

Daha bir gənc idmançı **Günəş Hüseynova** 7 yaşından bədii gimnastika ilə məşğuldur. Babək qəsəbə bir nömrəli tam orta məktəbin 6-cı sinfində təhsil alan Günəşin uşaq vaxtlarından idmana marağı böyük olub. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində Naxçıvan şəhərində 2014-cü ildə Bədii gimnastika bölməsi fəaliyyətə başlayandan sonra gənc idmançı həmin bölməyə yazdırılır, çalışqanlığı ilə həmyaşıdlarından fərqlənir. İlk çıxışını İlham Əliyev adına Olimpiya-İdman Kompleksində edir. 2015-ci ildə Azərbaycan çempionatı və bölgələrarası kubok yarışlarına qatılır. Məşqçi-müəllimi "Xatun" Bədii Gimnastika Klubunun baş məşqçisi, bədii gimnastika üzrə Azərbaycan Respublikasının idman ustası Humay Qafarovadır.



Valideyni Səfər Hüseynov: – Biz inanırdıq ki, Günəşi bu sahədə uğurlu gələcək gözləyir. Ailəmiz həmişə ona dəstək olur. Mən və babası bir vaxt futbol idman növü ilə məşğul olmuşuq. Xüsusilə babası Günəşin idmana gəlməsində mühüm rol oynayıb. O, ötən il Bakı şəhərindəki Milli Gimnastika Arenasında keçirilən bədii gimnastika üzrə XXV Azərbaycan birinciliyi və V bölgələrarası kubok yarışlarında 3 medal qazanıb. Həmin il Bakıda bədii gimnastika üzrə açıq çempionatda I yeri tutduğuna görə Daxili İşlər Nazirliyinin İdman Cəmiyyəti, ümumtəhsil məktəblərinin şagirdləri arasında istedad və bacarığı ilə fərqləndiyinə və qazandığı uğurlara görə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi, məktəblilərin (1999-2000-ci illər təvəllüdlü) Naxçıvan Muxtar Respublika spartakiadasında fəal iştirakına və ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr edilmiş "Heydər Əliyev kuboku" uğrunda turnirdə nümunəvi iştirakına görə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin diplom, medal və fəxri fərmanları ilə təltif edilib. O, 2018-ci il "İlin gənc idmançısı" nominasiyası üzrə mükafatlandırılıb. Bədii gimnastikanın top, halqa, alətsiz, gürz, lent növlərinin hər birində özünü sınayan Günəş hazırda bu növlər üzrə bölgələrarası Azərbaycan çempionatına hazırlaşır.

Artıq bir ildən çoxdur ki, ağır atletika ilə məşğul olan **Gülcahan Əliyeva** 48 kiloqram çəki dərəcəsində Azərbaycan çempionu və mükafatçısı olub. İstedadlı ağır atlet Azərbaycanın 14 yaşlılardan ibarət milli komandasının üzvüdür və muxtar respublikamızda ağır atletika üzrə yeganə qız idmançıdır. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində fəaliyyət göstərən Şərur rayon ağır atletika bölməsində məşq keçən Gülcahanın məşqçi-müəllimi həmin bölmənin baş məşqçisi Şəfi Hüseynovdur. İdmançı deyir ki, mən ağır atletikanı seçməklə bir daha bu idman növü ilə təkcə kişilərin deyil, qadınların da məşğul ola biləcəyini göstərməyə çalışdım. Məqsədim bizim üçün yaradılan şəraitdən istifadə edib daha böyük nailiyyətlər qazanmaqdır.



Ötən il Gülcahan Xırdalan şəhərində fəaliyyət göstərən "Zirvə" klubunda ağır atletika üzrə Azərbaycan çempionatının seçmə yarışında 14 yaş qrupunda 48 kiloqram çəki dərəcəsində birbaşa qaldırmada 31, təkanla qaldırmada isə 42 kiloqram qaldıraraq I yerə layiq görülüb, diplom və medalla təltif edilib.

Qeyd edək ki, bu gün muxtar respublikamızda bədii gimnastika ilə 150-dən, karate idman növü ilə 100-dən çox, yüngül atletika ilə isə 280 qız idmançı məşğul olur. Dövlət qayğısı hesabına idmanın inkişafı, istedadlı idmançıların yetişməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində naxçıvanlı idmançılar beynəlxalq, ölkə, muxtar respublika əhəmiyyətli yarışlarda öz qüvvələrini sınayır və uğurlu nəticələr əldə edirlər.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti üzrə 2019-cu ilin fevral ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 3092 | 225,5 | 225,5 | 100,0 |
| 2. | Şərur rayonu | 1953 | 137,8 | 137,8 | 100,0 |
| 3. | Babək rayonu | 1546 | 109,0 | 109,0 | 100,0 |
| 4. | Ordubad rayonu | 893 | 63,0 | 63,0 | 100,0 |
| 5. | Culfa rayonu | 773 | 54,9 | 54,9 | 100,0 |
| 6. | Kəngərli rayonu | 633 | 44,7 | 44,7 | 100,0 |
| 7. | Şahbuz rayonu | 368 | 26,0 | 26,0 | 100,0 |
| 8. | Sədərək rayonu | 172 | 12,2 | 12,2 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 12179 | 1096,1 | 1100,2 | 100,4 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **21609** | **1769,2** | **1773,3** | **100,2** |

**Qeyd:** Fevral ayında texniki itki nəzərə alınmaqla daxil olan 21 milyon 609 min kilovat-saat elektrik enerjisinin dəyəri 1 milyon 769 min 200 manat olmuş, cəmi 1 milyon 773 min 300 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,2 faizini təşkil edir.

## Cüdo üzrə muxtar respublika birinciliyinə yekun vurulub



Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində 5 mart – Bədən Tərbiyəsi və İdman Gününə həsr olunmuş yeniyetmələr arasında keçirilən cüdo üzrə muxtar respublika birinciliyi başa çatıb.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Güləş Federasiyasının birgə təşkil etdikləri birincilikdə 110 idmançı 10 çəki dərəcəsində mübarizə aparıb.

Altı komandanın iştirak etdiyi birinciliyin yekun nəticəsinə əsasən Mirismayıl Seyidov (30 kiloqram, Culfa), Səid Seyidov (34 kiloqram, Naxçıvan), Sami Səfərov (38 kiloqram, Naxçıvan), Kənan Fərzəlili (42 kiloqram, Naxçıvan), Elbrus Qalbalıyev (46 kiloqram, Naxçıvan), Sənan Cəfərov (50 kiloqram, Naxçıvan), Zahid Əhmədov (55 kiloqram, Naxçıvan), Fuad Əşrəfli (60 kiloqram, Naxçıvan), İsmayıl Abbaslı (66 kiloqram, Naxçıvan) və Elamin Zeynalov (+66 kiloqram, Naxçıvan) bütün rəqiblərinə qalib gələrək çempion adına layiq görülüblər.

Hər çəki dərəcəsində ilk üç yeri tutan idmançılar diplom və hədiyyələrlə mükafatlandırılıblar.

✍ **Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Cəfərov Sevindik Həmid oğlunun adına olan sürücülük vəsiqəsi və avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Nail Əsgərov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1495. Sifariş № 182**